

“Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var”.

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 17 yanvar 2024-cü il №3 (2814) https://mod.gov.az Qiyməti 30 qəpik


## “Heydər Əliyev İli”nin təntənəsi

2023-cü il artıq tarixə dönüb. Bu il bir çox əlamətdar hadisələrlə - ekofəalların fədakarlığı, Laçın nəzarət-buraxılış sərhəd məntəqəsinin yaradılması, lokal xarakterli antiterror tədbirləri nəticəsində ölkəmizin ərazi bütövlüyünün tam bərpası, qeyri-qanuni silahlı dəstələrin tərki-silah edilməsi, külli miqdarda qanunsuz silahların müsadirə olunması, Xankəndidə hərbi parad keçirilməsi və nəhayət, ilin sonlarına yaxın hərbi xidmətlə bağlı yeni qanun layihələrinin müzakirə edilərək qəbul olunması ilə yadda qaldı.

Uğurlarımızla yanaşı, 2023-cü il Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən ölkəmizdə "Heydər Əliyev İli" elan edildi. Ölkə miqyasında, eləcə də dünyanın bir çox yerlərində Ulu Öndərin xatirəsinə hörmət və ehtiram əlaməti olaraq təşkil olunan müxtəlif tədbirlər keçirildi.

Ulu Öndər Heydər Əliyev haqqında dəyərli məqalələr yazılıb və yenə də yazılacaqdır. Ümummilli Lider elə bir ömür yaşayıb, elə bir mübarizə yolu keçib, çağdaş tariximizdə elə böyük işlər görüb ki, onun irsi tükənməz bir sərvətdir, xatirəsi unudulmazdır.

Heydər Əliyevin Naxçıvan Muxtar Respublikasındakı fəaliyyətini daima qürur hissi ilə xatırlayır və şahidi olduğum hadisələrin qürurunu yaşayıram...

Xidmətim boyu mənə Ulu Öndər Heydər Əliyevlə 5 dəfə görüşmək nəsib olub. Dahi şəxsiyyəti yaxından gördüyümə, dinlədiyimə görə daima fəxr etmişəm. İllər ötməsinə baxmayaraq həmin görüşləri taleyimin parlaq səhifələri kimi iftixar hissi ilə xatırlayır, heç vaxt unutmur və tez-tez xatirəmdə canlandırıram.

Heydər Əliyevlə ilk dəfə görüşmək Naxçıvan MR-da, milli ordu sıralarında xidmətə başladığım günlərdə nəsib olmuşdur. Bu gün Dahi Rəhbər haqqında yazmağı vətəndaş vəzifəm, bir azərbaycanlı kimi vicdan borcu bilirəm.

Əgər Heydər Əliyev Sovet ordusu sıralarında azərbaycanlı hərbçi kadrların sayının artırılmasına 1971-ci ildə - Cəmşid Naxçıvanski adına Hərbi Liseyin yaradılması ilə nail olmuşdusa, müasir Azərbaycan Ordusunun təməlinin qoyulmasına da hələ Naxçıvanda Ali Məclisin sədri olarkən başlamışdır. O dövrdə baş verən prosesləri yaxşı xatırlayıram. Həmin illərdə mən də Naxçıvanda yeni yaranmış milli ordu bölmələrinin sıralarında xidmət edirdim. 1992-ci ildə Naxçıvanda ilk dəfə keçirilən və Heydər Əliyevin qəbul etdiyi hərbi paradda iştirak etmək mənə də nəsib olmuşdur.

Heydər Əliyev Ali Məclisin sədri olarkən Sovet ordusu bölmələrinin Muxtar Respublikadan çıxarılan bütün silah-sursatlarının, hərbi avadanlıqlarının özü tərəfindən yaradılan Müdafiə Komitəsinə təhvil verməsinə nail olmuşdu. Məhz bu silah və texnika sayəsində müasir Azərbaycan Ordusunun ilk bölmələrinin təməli qoyulmuş, Muxtar Respublikanın müdafiəsi uğurla təmin olunmuş və erməni silahlı birləşmələrinin hücumlarının qarşısı qətiyyətlə alınmışdır.

Bütün bu proseslərə Ulu Öndər şəxsən rəhbərlik edirdi. Eyni zamanda, Naxçıvanda fəaliyyət göstərən ayrı-ayrı özünümüdafiə taborlarının və müxtəlif şəxslərin nəzarətində olan silahlı dəstələrin vahid komandanlığa - Naxçıvan Müdafiə Komitəsinə tabe olunmasına da Heydər Əliyev hələ o vaxt nail olmuşdu. Müdafiə komitəsi nizami hərbi qurum kimi fəaliyyət göstərdi, sonradan Heydər Əliyevin təməlini qoyduğu, yaratdığı və daima inkişaf etdirdiyi Azərbaycan Ordusunun tərkibində fəaliyyətini davam etdirdi.



Dahi Rəhbərin nəzarəti altında Naxçıvanda yaradılan nizami hərbi bölmələr Prezident, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə davam edən ordu quruculuğu prosesi sayəsində genişləndi, inkişaf etdi, gücləndi və bu gün Əlahiddə Ümumqoşun Ordu kimi Vətənimizin müdafiəsi naminə qarşıda duran vəzifələri uğurla yerinə yetirməkdə davam edir. Əlahiddə Ümumqoşun Ordu mənsubları Vətən müharibəsində də uğurla iştirak etdi və yüzlərlə hərbi qulluqçu fədakarlığa, şücaətə görə Azərbaycan Respublikası Prezidentinin sərəncamlarına əsasən müxtəlif orden və medallarla təltif edildi, fəxri adlara layiq görüldü.

Ölkə miqyasında 2023-cü ilin "Heydər Əliyev İli" kimi qeyd edilməsi və Ümummilli Liderin 100 illiyinə həsr olunmuş silsilə tədbirlər onun xatirəsinə və Azərbaycan xalqı qarşısında xidmətlərinə verilən dəyərin, hörmətin, ehtiramın göstəricisi və təcəssümüdür.

Xalqımızın tarixində dünyamiqyaslı məşhur azərbaycanlı sərkərdələr, elm və dövlət xadimləri çox olub. Lakin yorulmaz, çoxsahəli fəaliyyəti və həyata keçirdiyi nəhəng layihələr sayəsində uğurlar qazanmaqla Azərbaycan tarixində ən dərin izlər buraxmış görkəmli ictimai-siyasi xadim, Azərbaycan xalqının Ümummilli Lideri, müasir Azərbaycan dövlətinin və ordusunun qurucusu Heydər Əliyevin xidmətləri əvəzsizdir, ölçüyə sığmazdır.

Heydər Əliyev keçmiş Sovetlər birliyində respublikamıza rəhbərlik etdiyi vaxtlarda da bütün istiqamətlərdə mühüm yeniliklər, uğurlar əldə edirdi və Azərbaycanda baş verən bu müsbət dəyişikliklər təkcə respublikamızda deyil, ittifaq miqyasında da daim təqdir edilmişdir.

Bu gün tam əminliklə demək olar ki, Ulu Öndərin respublikamıza rəhbərlik etməyə başladığı ilk günlərdən nail olunan əsaslı dəyişikliklər sayəsində Azərbaycan təkamül dövrünə qədəm qoydu və Sovet İttifaqının ən inkişaf etmiş respublikalarından birinə çevrildi. Azərbaycan xalqının Ümummilli Liderinin Azərbaycan və ittifaq miqyasında fəaliyyəti zamanı qəbul etdiyi qərarlar, atdığı addımlar onun uzaqgörən rəhbər, müdrik dövlət xadimi olduğunu əyani sübut etdi.

Ulu Öndər daima çalışırdı ki, azərbaycanlı gənclər bütün sahələrdə, xüsusilə də hərbi sahədə uğur qazansınlar. O vaxtlar azərbaycanlı gənclər hərbi xidmət keçmək, ali hərbi təhsil alaraq hərbi karyerada yüksəlmək istiqamətində müxtəlif əngəllərə məruz qalırdılar. Hələ çar Rusiyasından qalan bu ənənə Sovet hakimiyyəti dövründə də mövcud idi. Azərbaycanlılar az sayda olsa da, Sovet ordusunda xidmətə qəbul olunurdular, lakin onlar yüksək vəzifələrə təyin edilmir, baş zabit və ali hərbi rütbələrə çox nadir hallarda layiq görülürdülər. Bu səbəbdən də ittifaq miqyasında azərbaycanlı generallar, yüksək vəzifəyə təyin edilən hərbçilər barmaqla sayılacaq qədər az idi. Ulu Öndər respublikamıza rəhbərlik etdiyi dövrdə və İttifaq miqyasında rəhbər vəzifədə olarkən bu stereotipi sındıra bildi, maneələri dəf etməyə nail oldu.

Bu gün çağdaş tariximizə nəzər saldıqda görürük ki, Ulu Öndər Heydər Əliyevin Azərbaycan Sovet Sosialist Respublikasına rəhbərliyi dövrünün ilk illərində, yəni, 1971-ci ildə indiki Cəmşid Naxçıvanski adına Hərbi Liseyin yaradılmasına nail olması xalqımız üçün taleyüklü bir hadisə oldu. Çünki belə bir addımı atmaq o vaxt yüksək qətiyyət, iradə, eyni zamanda, böyük cəsarət tələb edirdi.

Bütün təqiblərə, hədələrə, əngəllərə baxmayaraq, Heydər Əliyevin yaratdığı Hərbi lisey fəaliyyətə başladı və gələcəkdə müstəqil Azərbaycanda nizami ordu quruculuğuna misilsiz töhfələr verdi. Dahi Liderin yadigarı olan və övladı qədər sevdiyi Cəmşid Naxçıvanski adına Hərbi Lisey bu gün də ordu quruculuğu prosesində xüsusi əhəmiyyətə malikdir.

Dahi şəxsiyyətin böyük çətinliklər hesabına yaratdığı hərbiləşdirilmiş ibtidai məktəbə ilk illərdən başlayaraq qəbul olanların böyük əksəriyyəti Heydər Əliyevin israrlı təkidləri, tələbləri nəticəsində məhz azərbaycanlı yeniyetmələr idi və yerli gənclərə daima üstünlük verilirdi. Həmin illərdən başlayaraq gələcəkdə müstəqillik qazanacaq Azərbaycanın milli ordusunda xidmət edəcək zabitlər hərbi təhsildə ilk addımlarını da Cəmşid Naxçıvanski adına Hərbi Liseydə atdılar.

Heydər Əliyevin qətiyyətli mövqeyi nəticəsində liseydə təhsil alan azərbaycanlı yeniyetmələrin sayı ilbəil artırdı. Heydər Əliyev bu təhsil ocağında təhsil alanlara diqqət-qayğı göstərər, tez-tez liseyə gələrək burada oxuyan kursantlarla görüşər, onların qayğıları ilə maraqlanardı. Azərbaycanlı yeniyetmələrin hərbi təhsildə qazandıqları nailiyyətlərlə fəxr edər, onların uğurlarından qürurlanardı.

Hələ Sovetlər dönəmində müxtəlif ali vəzifələrdə çalışan Ulu Öndər daima azərbaycanlı gənclərin Sovetlər birliyinin ali hərbi təhsil müəssisələrində oxuyaraq zabit olmalarına da xüsusi həssaslıqla yanaşırdı. Azərbaycan xalqının Ümummilli Liderinin gərgin fəaliyyəti nəticəsində Sovetlər birliyinin bir çox hərbi məktəblərinə göndərilərək ali hərbi təhsil alan zabitlər respublikamız müstəqillik qazandığı ilk gündən Vətənə dönərək Azərbaycan Ordusunun yaradılmasında, inkişafında var qüvvələri ilə çalışdılar. Həmin illərdə hərbi təhsil alan zabitlər Birinci və İkinci Qarabağ müharibələrində, eləcə də sonradan həyata keçirilən hərbi əməliyyatlarda da fəal iştirak etmiş, qəhrəmanlıq nümunələri göstərmişdilər.

Ulu Öndər Heydər Əliyev hakimiyyətdə olduğu illərdə müstəqil respublikamızda da milli zabit kadrlarının hazırlanmasına böyük diqqət ayırırdı. Vaxtilə Azərbaycan Ali Hərbi Təyyarəçilik Məktəbi yaradılmışdı, bu məktəb indi Heydər Əliyev adına Hərbi İnstitutun bir fakültəsidir. Bu məktəbin məzunları da Vətən müharibəsində rəşadətlə döyüşdülər.

10 mart 2004-cü ildən müasir Azərbaycan Ordusunun banisi və qurucusu, Ümummilli Liderin adını daşıyan Azərbaycan Ali Hərbi Məktəbinin 4 may 2022-ci ildə möhtərəm Prezidentimiz cənab İlham Əliyevin Sərəncamı ilə Heydər Əliyev adına Hərbi İnstitut adlandırılması da dahi rəhbərin xatirəsinə olan hörmət və ehtiramın təzahürüdür.

Azərbaycan xalqı XX əsrin sonuna yaxın müstəqilliyini bərpa etdikdən dərhal sonra Ermənistan tərəfindən elan olunmamış müharibəyə cəlb edildi. Ölkəmizə qarşı ərazi iddiası olan erməni separatçılarının təxribatları Ermənistanla sərhəd boyu ərazilərdə və Qarabağ iqtisadi zonasında tez-tez baş verirdi.

Ermənistan dövlətinin erməni silahlı birləşmələri havadarlarının və regiondan kənar qüvvələrin dəstəyi ilə başladığı işğal prosesinin miqyası genişlənməkdə davam edirdi. Həmin dövrdə baş verən daxili çəkişmələr də dövlətçiliyimizə böyük təhlükə idi. Belə bir mühitdə Azərbaycanı düçar olduğu bəlalardan xilas edəcək liderə ehtiyac olduğu danılmaz fakt idi. Xalqımızın seçdiyi, sevdiyi və dövlətçilik təcrübəsinə bələd olduğu belə bir lider isə müdrik, uzaqgörən, qətiyyətli və iradəli Heydər Əliyev idi.

**(Ardı 3-cü səhifədə)**

## Azərbaycan müdafiə naziri Türkiyə tərəfinə başsağlığı verib

Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov Türkiyə Respublikasının milli müdafiə naziri cənab Yaşar Gülerə başsağlığı ünvanlayıb.

Başsağlığında deyilir: "Cari ilin 12 yanvar tarixində, Pençe-Kilit antiterror əməliyyatı bölgəsində terror təşkilatı üzvlərinin xaincəsinə hücumu nəticəsində Türkiyə Silahlı Qüvvələrinin hərbi qulluqçularının şəhid olması və yaralanması barədə xəbər məni hədsiz kədərləndirdi.

Sizin acınız bizim də acımızdır.

Biz terrorun bütün növ təzahürlərini qətiyyətlə qınayırıq.

Terrora qarşı aparılan kəskin mübarizədə daima qardaş Türkiyə Silahlı Qüvvələrinin yanındayıq və dəstəkləyirik.

Bu hadisə zamanı şəhid olmuş qəhrəman türk əsgərlərinə rəhmət diləyir, onların yaxınlarının dərdlərinə şərik olur, ailələrinə dərin hüznlə başsağlığı verirəm. Bütün yaralılara Tanrıdan şəfa diləyirəm.

Allah rəhmət eləsin".

## Azərbaycan müdafiə naziri Qırğızıstan tərəfinə başsağlığı verib

Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov cari ilin 17 yanvar tarixində, təlim-məşq uçuşları zamanı "Mİ-8" hərbi helikopterinin qəzaya uğraması ilə bağlı Qırğız Respublikasının müdafiə naziri general-leytenant Baktıbek Bekbolotova başsağlığı ünvanlayıb.

# Azərbaycan və Türkiyə arasında hərbi əməkdaşlıq məsələləri müzakirə edilib







*Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov ölkəmizdə işgüzar səfərdə olan Türkiyə Respublikası milli müdafiə nazirinin müavini cənab Celal Sami Tüfekçinin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.*

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, görüşdən əvvəl qonaqlar Fəxri xiyabanda Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın məzarlarını, həmçinin Şəhidlər xiyabanını və Türk Şəhidliyini ziyarət edərək əklil və gül dəstələri qoyub, xatirələrini dərin hörmət və ehtiramla yad ediblər.

Sonra Müdafiə Nazirliyində türkiyəli nümayəndə heyəti ilə görüş keçirilib.

Qonaqları salamlayan general-polkovnik Zakir Həsənov onların ölkəmizdə görməkdən məmnun olduğunu bildirib.

Hər iki ordunun döyüş əməliyyatları zamanı şəhid olan hərbi qulluqçularının xatirəsi ehtiramla anılıb, tərəflər şəhidlərə Allahdan rəhmət diləyiblər.

Nazir Azərbaycanla Türkiyə arasında digər sahələrdə olduğu kimi, hərbi sahədə də əməkdaşlığın daim inkişaf etdiyini bildirib. Ölkələrimiz arasında strateji müttəfiqliyin dostluq və qardaşlıq münasibətləri üzərində qurulduğunu xüsusi vurğulayıb.

Müdafiə naziri ölkələrimiz arasında əməkdaşlığın yüksək səviyyəyə çatmasında hər iki dövlət başçısının səmimi münasibətlərinin əvəzsiz rolu olduğunu qeyd edib.

Cənab C.S.Tüfekçi öz növbəsində ölkəmizə səfərindən məmnunluğunu ifadə edib. Ölkələrimiz arasında qarşılıqlı inam, etimad və dəstəyə əsaslanan əməkdaşlığın daha da genişləndirilməsinin vacibliyini bildirib.

Türkiyə Respublikasının Azərbaycandakı səfiri cənab Cahit Bağcının və qardaş ölkənin müdafiə sənayesi şirkətləri rəhbərliyinin də iştirak etdiyi görüşdə hərbi təchizat sahəsində birgə layihələrin əhəmiyyəti qeyd olunub. Ölkələrimiz arasında hərbi, hərbi-texniki və digər sahələrdə əməkdaşlığın daha da genişləndirilməsi, həmçinin regional təhlükəsizlik məsələləri müzakirə edilib.





# Azərbaycan ilə Türkiyə arasında hərbi-texniki əməkdaşlığın inkişaf perspektivləri müzakirə olunub



*Yanvarın 17-də Azərbaycan Respublikası müdafiə nazirinin müavini - Baş direktor cənab Aqil Qurbanov ölkəmizdə işgüzar səfərdə olan Türkiyə Respublikası milli müdafiə nazirinin müavini cənab Celal Sami Tüfekçinin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.*

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, Beynəlxalq Hərbi Əməkdaşlıq İdarəsində keçirilən görüş zamanı Azərbaycan ilə Türkiyə arasında hərbi əməkdaşlığın inkişaf perspektivləri müzakirə edilib.

Tərəflər hərbi-texniki sahədə maraq doğuran bir sıra məsələlərə dair ətraflı fikir mübadiləsi aparıblar.

# Azərbaycan Ordusunun kadr işləri üzrə heyəti ilə təlim-metodiki toplanış keçirilib

Müdafiə naziri general-polkovnik Zakir Həsənovun 2024-cü il üçün təsdiq etdiyi plana əsasən, birlik, birləşmə, hərbi hissə və xüsusi təyinatlı təhsil müəssisələrinin kadr işləri üzrə ləğa cavabdeh şəxslərin iştirak etdiyi toplanışda Şəxsi Heyət Baş İdarəsi rəisi vəzifəsini icra edən general-mayor Elçin Xəlilov çıxış edib. Azərbaycan Ordusunda kadrların idarə edilməsi Müdafiə Nazirliyinin rəhbərliyi tərəfindən daim diqqət mərkəzində saxlanıldığı vurğulanıb.

Ordumuzun strateji düşüncəyə malik, bacarıqlı kadrlarla





heyəti ilə təlim-metodiki toplanış keçirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, əvvəlcə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və ölkəmizin müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Kadr orqanı işçiləri, şəxsi heyətin uçotuna, təşkilat-səfərbərlik və qeyri-məxfi kargüzarlığa cavabdeh şəxslərin ... Baş İdarə rəisi 2024-cü ildə qarşıda duran əsas tapşırıqlar barədə iştirakçıları məlumatlandırıb; məsi üzrə ötən il ərzində görülmüş işlərdən danışan Baş İdarə rəisi 2024-cü ildə qarşıda duran əsas tapşırıqlar barədə iştirakçıları məlumatlandırıb.

Qeyd olunub ki, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi ilə Türkiyə modelinə uyğunlaşdırılması məqsədilə Azərbaycan Ordusunda uğurlu islahatlar aparılıb. Bu istiqamətdə icra edilən tədbirlərin cari ildə də davam etdiriləcəyi komplektləşdirilməsi, təşkilati-ştat strukturunun təkmilləşdirilməsi üzrə icra edilən tədbirlər, əldə edilən nailiyyətlər, həmçinin kadr idarəetmə sisteminin daha da təkmilləşdirilməsi üzrə görülən işlərin müsbət təsiri diqqətə çatdırılıb.

Təlim-metodiki toplanışda Azərbaycan Ordusunun kadr işləri üzrə cavabdeh zabitlərinin kadr hazırlığı və komplektləşdirmə istiqamətində həyata keçirilən fəaliyyətlər barədə məruzələri dinlənilib.

# “Heydər Əliyev İli”nin təntənəsi

(Əvvəli 1-ci səhifədə)

Xalqın təkidli tələbi ilə Ulu Öndərin Bakıya dəvət edilməsi xalqımızın bütün ümidlərini doğrultdu. Dahi Lider böyük rəğbətlə Ali Sovetin sədri, sonra isə Azərbaycan Respublikasının Prezidenti seçildi. Və həmin gün 15 İyun - Azərbaycanın Milli Qurtuluş Günü kimi tarixləşdi.

Ermənistan silahlı birləşmələri tərəfindən işğal edilmiş torpaqlarımızın Vətən müharibəsi zamanı azad edilməsi son 30 ildə ölkəmizdə inamla yürüdülən dövlət siyasətinin və böyük strategiyanın nəticəsidir. Bu qətiyyətli strategiyanın həyata keçirilməsində ordu quruculuğu prosesi daima ən əsas və prioritet məsələlərdən biri olmuşdur. Məhz bu səbəbdən Dahi şəxsiyyətin yenidən hakimiyyətə gəldiyi ilk gündən ən çox diqqət yetirdiyi istiqamətlərdən biri də məhz vahid komandanlığa tabe olan ordunun yaradılması, formalaşdırılması və ölkəmizin hərbi qüdrətinin artırılması oldu.

Fərəhlə deyə bilirik ki, Heydər Əliyev ideyalarına sadiqlik ölkəmizi regionda, eləcə də dünyada söz sahibi olan dövlətə çevirməklə yanaşı, ordumuzu da Zəfər qazanan qüdrətli ordu edə bildi.

Sözün əsl mənasında, ordu quruculuğunun təməlinin qoyulması Ulu Öndərin adı ilə bağlıdırsa, onun dühasından bəhrələnməklə, inamlı islahatlar həyata keçirməklə, məharətli sərkərdəlik bacarığı nümayiş etdirməklə, Azərbaycan Ordusunu Zəfərə aparmaqla, torpaqlarımızın azad edilməsinə nail olmaq da Ali Baş Komandan cənab İlham Əliyevin xalqımız qarşısında ən möhtəşəm xidmətidir.

Milli Qurtuluş Günündən başlayaraq, yeni, Heydər Əliyevin xalqın təkidi ilə yenidən hakimiyyətə qayıdışından sonra ölkəmizdə uğurlu iqtisadi layihələrə start verildi, respublikamızda nizami ordu quruculuğu ilə bağlı böyük islahatlar başladı və gələcək qələbələrimizin təməli qoyuldu.

Dahi Rəhbərin o vaxtlar gördüyü işlər Azərbaycanda vahid komandanlığa tabe olan nizami ordu quruculuğu prosesinin başlanğıcı oldu. Çünki yenidən hakimiyyətə qayıtdıqdan sonra Heydər Əliyevin qəbul etdiyi ən uğurlu qərarlardan biri də, məhz Naxçıvanda olduğu kimi, bütün ölkə miqyasında fəaliyyət göstərən ayrı-ayrı özünümüdafiə taborlarının və müxtəlif şəxslərin nəzarətində olan silahlı dəstələrin ləğv edilərək Azərbaycan Respublikası Silahlı Qüvvələrinin tərkibində vahid komandanlıq altında birləşdirilməsidir.

Ulu Öndər Heydər Əliyev tez-tez cəbhə bölgəsinə səfərlər edir, döyüşən hərbi hissələrdə görüşlər keçirirdi. Bu, şəxsi heyətin böyük ruh yüksəkliyinə səbəb olurdu. Qısa müddətdə ordumuzun bölmələri Füzuli-Horadiz istiqamətində düşmənə sarsıdıcı zərbələr endirdi, böyük ərazi işğaldan azad olundu və gələcəkdə daha böyük qələbələrimizə aparan yol başladı.

Başlıca məqsədi qüdrətli Azərbaycan Ordusunun yaradılması olan Ulu Öndər beynəlxalq hərbi əməkdaşlığa da xüsusi diqqət ayırır, NATO-nun əsas aparıcı gücü olan Türkiyə modelinə daha böyük önəm verirdi. Bu gün Ali Baş Komandan cənab İlham Əliyev tərəfindən ordumuzda həyata keçirilən islahatların bəzilərinin dünya standartlarına inteqrasiyası və Türkiyə modelinə uyğun ordu quruculuğuna keçid də Dahi Rəhbərin ideyalarına sadiqliyin bəhrəsidir.

Müzəffər Ali Baş Komandanın tapşırığına əsasən, hərbi quruculuq prosesində dünyada mövcud olan ən qabaqcıl təcrübələr öyrənilir və inkişaf etmiş ölkələrin təcrübəsindən də yararlanmaqla ölkəmizdə genişmiqyaslı islahatların həyata keçirilməsi planlı şəkildə davam edir. Azərbaycan Ordusunun Türkiyə Silahlı Qüvvələrinin modelinə uyğunlaşdırılması istiqamətində komando hərbi hissələrinin yaradılması da son illər aparılan islahatların tərkib hissəsidir.

İki qardaş ölkənin tarixində mühüm rol oynayan və 2021-ci il iyunun 15-də imzalanan Şuşa Bəyannaməsi sayəsində Türkiyə və Azərbaycan münasibətləri rəsmən müttəfiqlik zirvəsinə ucaldı. Şuşa Bəyannaməsi ölkələrimiz arasındakı müttəfiqlik əlaqələrini özündə ehtiva edir və siyasət, diplomatiya, iqtisadiyyat, sosial, informasiya, enerji təhlükəsizliyi və nəqliyyat, eləcə də ordu quruculuğu sahələrini əhatə edir. Bu da Türkiyə ilə əlaqələrimizin inkişafına həssaslıqla yanaşan Heydər Əliyev siyasətinə, Ümummilli Liderin ideyalarına sədaqətin bəhrəsidir.

Ordu quruculuğu prosesində hərbi qulluqçuların sosial müdafiə məsələləri də önəmli faktorlardan biridir. Ömrünü hərbi xidmətə, Vətənin müdafiəsinə həsr edən, o cümlədən müddətli hərbi xidmət keçən gənclərin sosial qayğılarının həll edilməsi, rifah halının yaxşılaşdırılması daima dövlətimizin diqqətində olmuşdur. Ulu Öndər Heydər Əliyevin fəaliyyəti dövründə hərbçilərə, onların ailə üzvlərinə də xüsusi diqqət və qayğı göstərilir, xidməti-döyüş fəaliyyətinin, mənzil-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində də mühüm addımlar atılırdı. Hərbi qulluqçuların məvaciblərinin, müharibə veteranlarının müavinətlərinin aylıq müntəzəm olaraq artırılması bu qayğının təzahürü idi. Orduya və ordu mənsublarına, müharibə veteranlarına diqqət və qayğı göstərən Ulu Öndər həmişə onlarla görüşür, qayğılarını dinləyir və qaldırılan məsələlərin həll edilməsi üçün lazımi tapşırıqlar verirdi.

Bu iş də müasir ordu quruculuğu prosesində Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev tərəfindən də yüksələn templə həyata keçirilir. Hərbi qulluqçuların maddi rifah halının yaxşılaşdırılması istiqamətində böyük işlər görülür, onların sosial müdafiəsinin gücləndirilməsi məqsədilə mütəmadi olaraq fərman və sərəncamlar imzalanır.

Bu məqamda son günlər şahidi olduğumuz iki faktı bir daha oxucularımıza xatırlatmaq istərdim. Ümumilikdə insan fəaliyyətinin bütün sahələrində olduğu kimi, ordu quruculuğu prosesində də zəruri həvəsləndirmə, yüksək sosial-müdafiə, mənzil-məişət şəraitinin yaxşılaşdırılmasının dəstəklənməsi, pensiya təminatı tədbirlərinin təkmilləşdirilməsi və genişləndirilməsi həm ordunun döyüş hazırlığının yüksək səviyyədə saxlanılmasına, həm də gənclərin hərbi xidmətə marağının artmasına, hərbi təhsilə cəlb edilməsinə müsbət təsir göstərir.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən xidmət etdiyi qurumdan asılı olmayaraq bütün hərbi qulluqçuların aylıq vəzifə maaşlarının 1 yanvar 2024-cü il tarixindən 20 faiz artırılması da hərbi qulluqçuların sosial müdafiəsinə mühüm töhfədir, hərbçilərə dövlət qayğısının bariz nümunəsidir.

İkinci bir məqam isə Milli Məclisdə müzakirə edilən yeni qanun layihələridir. Təklif edilən yeniliklər hərbi təhsil müəssisələrindən məzun olan zabit və gizirlərin orduda uzunmüddətli xidmətlərinin təmin edilməsini özündə ehtiva edir. Tətbiq ediləcək yeni qanun layihələrində hərbi qulluqçuların xidməti fəaliyyəti, hərbi xidmət mənafeyi nəzərə alınmaqla, peşəkar inkişafı, bilik və bacarıqlarının təkmilləşdirilməsi məqsədilə əlavə təhsil imkanlarının daha da genişləndirilməsi nəzərdə tutulub. Əminəm ki, bu addımlar da öz növbəsində orduda xidmətə marağı daha da artıracaq, kadrların peşəkarlığını yüksəldəcək, sosial mühitin sağlamlaşmasına və mənəvi-psixoloji durumun daha da yüksəlməsinə növbəti təkan verəcəkdir.

Bildiyimiz kimi, bu gün ölkəmizdə yetərincə ixtisaslaşmış, müasir avadanlıqlarla təchiz edilmiş peşə təmayüllü siniflər, kolleclər mövcuddur və bu təhsil ocaqları müxtəlif peşələr üzrə ixtisaslı kadrlar yetişdirmək imkanına malikdir. Belə təhsil ocaqlarının məzunları olmuş gənclərin də hərbi kolleclərdə təhsilə cəlb edilməsi gələcəkdə əlavə təhsil alaraq öz bilik və bacarıqları ilə ordumuzun inkişafına töhfə vermələrinə də davam etmələrinə şərait yaradacaqdır.

Son illərdə əldə etdiyimiz mühüm qələbə və uğurların ən əsas səbəbi, təməli Ümummilli Lider tərəfindən qoyulan proseslərin Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev tərəfindən uğurla, planlı olaraq davam etdirilməsidir. Ulu Öndərin rəhbərliyi dövründə olduğu kimi, bu gün yenə də ölkəmizdə ordu quruculuğu məsələsi prioritet istiqamət olaraq qalır. Vətən müharibəsi və sonradan keçirilən hərbi əməliyyatlar, o cümlədən cari ilin sentyabrın 19-20-də həyata keçirilən lokal xarakterli antiterror tədbirləri nəticəsində 30 ilə yaxın erməni işğalı altında qalmış torpaqlarımızın azadlığa qovuşması, ərazi bütövlüyümüzün tam təmin olunması, Şanlı Qələbəmizin qazanılması Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin davam etdirdiyi uğurlu ordu quruculuğu prosesinin ən bariz nümunəsidir.

Aprel döyüşlərində, Günnüt əməliyyatında, Tovuz döyüşlərində düşmənə layiqli cavab verən qüdrətlənən ordumuz böyük döyüş təcrübəsi də qazandı. Mənbəyini Ulu Öndər Heydər Əliyevin qəbul etdiyi ilk qərardan, ilk yenilikdən götürən ordumuz Müzəffər Ali Baş Komandanımızın sonradan bu istiqamətdə qəbul etdiyi yeni qərarlardan, həyata keçirilən islahatlardan sonra qüdrətli bir qüvvəyə çevrildi.

Bu uğurların nəticəsidir ki, bu gün Azərbaycan Ordusu Vətənimizə yönələn istənilən təxribatın qarşısını almağa, suverenliyimizə, ərazi bütövlüyümüzə göz dikən düşməni məğlubiyyətə uğratmağa qadir olan gücdür. Düzgün ordu quruculuğu siyasəti nəticəsində ordumuz dünyanın qabaqcıl orduları sırasındadır və bölgənin ən güclü ordusuna çevrilib. Modernizə olunmuş, yeniliklərə doğru daim irəliləyən qüdrətli Azərbaycan Ordusu sıralarında xidmət etmək hər bir şəxs üçün qürur mənbəyidir. Bu gün ordumuz regionun ən güclü hərbi strukturu, dünya orduları sırasında yüksək yer tutan, vahid mərkəzdən idarə olunan qüdrətli ordudur. Prezident İlham Əliyevin də dəfələrlə qeyd etdiyi kimi, bu gün ordumuz, üç il əvvəl Vətən müharibəsində Zəfər qazanan ordudan daha da güclüdür.

**SÖZARDI**: Ulu Öndərin böyük pərəstişkarı, ona böyük sevgi ilə, ehtiramla yanaşan və daima onun haqqında qürur, iftixar hissi ilə danışan dostumdan eşitdiyim bir fikri xatırladım: Dahi Liderin xatirəsinə həsr olunmuş tədbirdə sitat gətirdiyi "Min qəddi əyən ağır mənəvi yük bir çiyinə düşəndə dahilik yaranır". Bu fikir Ulu Öndərin böyüklüyü haqqında səslənmiş ən gözəl ifadələrdən biridir.

Dahi Heydər Əliyevin qüdrəti ondadır ki, xalqın, Vətənin ən dar günündə çiynini xalqın mənəvi yükü altına cəsarətlə qoydu, bu yükü inamla daşıdı, gənc, müstəqil dövlətimizi uçurumdan xilas etdi, 10 milyonluq Azərbaycan Respublikasını xoşbəxt gələcəyə aparmaq yolunda dönmədən çalışdı, Azərbaycan üçün Azərbaycanla yaşadı. Bütün həyatını xalqa xidmət amalına həsr etdi və bundan xoşbəxt olduğunu, qürur duyduğunu daim bəyan etdi.

Zaman dahilər formalaşdırır, yetişdirir. Dahilər əbədiləşən tarix yazır. Dövrünün dünya miqyaslı dahisi olan Heydər Əliyev də Azərbaycan xalqının tarixində əbədi bir tarix yazdı. Nə qədər Azərbaycan var, Azərbaycan xalqı var, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin xatirəsi daim hörmətlə anılacaq, ideyaları Azərbaycanın dövlətçilik işığı olacaq.

**İsa İSMAYILOV**
**ehtiyatda olan polkovnik-leytenant, hərbi jurnalist**

## Milli Müdafiə Universitetində Səudiyyə Ərəbistanı Krallığının nümayəndə heyəti ilə görüş keçirilib



Ölkəmizdə səfərdə olan Səudiyyə Ərəbistanı Krallığının Milli Müdafiə Universiteti və Komanda-Qərargah Akademiyasının rəhbərliyi, professor-müəllim heyəti və dinləyiciləri Milli Müdafiə Universitetinin Hərbi İdarəetmə İnstitutunu ziyarət ediblər.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, qonaqlara Milli Müdafiə Universitetinin yaranma tarixi və təhsil sistemi, eləcə də elmi fəaliyyəti barədə brifinq təqdim edilib.

Keçirilən görüşdə ölkələrimiz arasında hərbi təhsil sahəsində əməkdaşlığın genişləndirilməsindən söhbət açılıb, bu istiqamətdə görüləcək işlərlə bağlı ətraflı fikir mübadiləsi aparılıb, həmçinin qarşılıqlı maraq doğuran bir sıra məsələlər müzakirə olunub.



Sonra nümayəndə heyəti Milli Müdafiə Universitetinin nəzdində fəaliyyət göstərən Hərbi İdarəetmə İnstitutunun Hərb Oyunları Mərkəzində olub. Qonaqlar institutun və mərkəzin əsas fəaliyyət istiqamətləri, imkan və qabiliyyətləri barədə məlumatlandırılıb.

Sonda qarşılıqlı hədiyyələr təqdim olunub və birgə xatirə şəkli çəkdirilib.

# Eyni ruhu yaşadır Azərbaycan, Türkiyə!



*Azərbaycanda da, Türkiyədə də qaziliyə, şəhidliyə, müharibə veteranlarına böyük ehtiram var. Bu vətənpərvərliyin təzahürüdür. Azərbaycanda da, Türkiyədə də dövlət bu istiqamətdə konkret tədbirlər görür, müxtəlif ictimai birliklər bu tədbirlərin icraçısı olurlar...*

Azərbaycan və Türkiyə dövlətləri arasında dostluq, qardaşlıq münasibətləri dərin tarixi köklərə malikdir. Bu münasibətlər dostluğun, qardaşlığın nümunəsi kimi dəyərləndirilir. Azərbaycanla Türkiyə arasında əsl dostluq və qardaşlıq münasibətlərinin mahiyyəti Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin ifadə etdiyi "Bir millət, iki dövlət" kəlamında, Türkiyə Cümhuriyyətinin qurucusu Mustafa Kamal Atatürkün zamanında söylədiyi "Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir" kəlamında məntiqli ifadə olunub. Türk dünyasının bu iki tarixi şəxsiyyəti öz müdrik kəlamları ilə hər iki dövlətin gələcək nəsillərinə əbədi olaraq bir ehtiram irsi qoymuşlar: Türkiyə ilə Azərbaycan arasında dostluq, qardaşlıq münasibətləri əbədi və sarsılmazdır.



Azərbaycanla Türkiyə arasında olan yaxın münasibət də əsrlərdir davam etməkdədir. Tarixin ən çətin məqamlarında hər iki dövlət biri-birinə arxa-dayaq olub. Birinci Dünya müharibəsi zamanı Azərbaycan Rusiyanın tərkibində olsa da, Osmanlı dövləti istəmədən döyüşlərə sürüklənəndə soydaşlarımızın qardaşlarının yanında olmağı özünə borc bildilər. Çanaqqala döyüşlərində on minlərlə azərbaycanlı türk qardaşları ilə nəfəs-nəfəsəydi, minlərlə azərbaycanlı da şəhid oldu.

Vətən müharibəsinin ilk saatlarından Türkiyə Azərbaycanın yanında olaraq ən böyük mənəvi və diplomatik dəstək verdi. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Şuşa Bəyannaməsinin imzalanmasından sonra mətbuata verdiyi bəyanatında qeyd etdi ki, bu gün Türkiyə və Azərbaycan bir-birinə dünya miqyasında ən yaxın olan ölkələrdir. "Bizi birləşdirən bir çox amillər var, ilk növbədə, tarix, mədəniyyət, ortaq etnik köklər, dilimiz, dinimiz, milli dəyərlərimiz, milli maraqlarımız, xalqlarımızın qardaşlığı bu birliyi təmin edib. Bu gün biz dünya miqyasında, dünya çapında nadir əməkdaşlıq, iş birliyi, müttəfiqlik nümunəsi göstəririk".

Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan isə iki dövlət arasında münasibət haqqında belə dedi: "Azərbaycan bizim üçün sadəcə dövlətlərdən bir dövlət, azərbaycanlı qardaşlarımız da millətlərdən bir millət deyil. Biz eyni dili danışan, eyni inanca mənsub, ortaq bir tarixi keçmişi olan, sözdə deyil, əməldə qardaş, bir millət, iki dövlətik".

2023-cü il fevralın 6-da Türkiyədə baş verən zəlzələ bütün Azərbaycanı sarsıtdı. Dövlətimizin başçısı Türkiyənin ölkəmizdəki səfirliyinə gedərək başsağlığı verdi. Xalqımız bu acı faciənin fəsadlarının tezliklə aradan qaldırılmasında qardaş dövlətin yanında olmağı özünün şərəf işi, qardaşlıq borcu adlandırdı, əlindən gələni əsirgəmədi.

Azərbaycanla Türkiyə arasında münasibətlərin, əməkdaşlıq əlaqələrinin daha da möhkəmlənməsinə dövlətlər səviyyəsində güclü siyasi iradə göstərilir, eyni zamanda, cəmiyyətlər də buna böyük maraq nümayiş etdirirlər.

Yanvarın 10-dan 16-na kimi Türkiyənin Bursa şəhərindən 17 nəfər türk qazi və şəhid ailə üzvü Azərbaycanda səfərdə oldu. Səfərin məqsədi Azərbaycan və Türkiyə şəhid ailələrini və qaziləri bir araya gətirmək, onların mənəvi birliyini daha da möhkəmləndirmək, onlara mənəvi dəstək göstərməklə qardaşlıq bağlarımızı daha da gücləndirməkdir.



Müdafiə Nazirliyinin İstirahət Evində yerləşdirilən qonaqlar səfərin ilk günündə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin məzarını, Şəhidlər xiyabanını və "Türk şəhidliyi" abidəsini ziyarət etdilər, abidə önünə gül dəstələri düzdülər.

Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzində Müdafiə Nazirliyi rəhbərliyinin türkiyəli qonaqlarla görüşü keçirilib. Əvvəlcə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və Turkiyə Respublikasının qurucusu Mustafa Kamal Atatürkün və türk dünyasının şəhidlərinin xatirəsi bir dəqiqəlik sükutla yad olundu. Görüşdə Azərbaycan-Türkiyə arasında qardaşlıq, dostluq əlaqələrinin əbədi olduğunu, bu münasibətlərin bir çox ölkələr üçün nümunə olduğu vurğulanıb. Azərbaycan-Türkiyə əlaqələrinin möhkəmlənməsi üçün ötən əsrin əvvəllərində Mustafa Kamal Atatürk, sonlarında Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev tərəfindən çox mühüm tədbirlər görüldüyü xüsusilə qeyd edilib və bu əlaqələrin iki ölkə arasında hər gün daha da inkişaf etdiyindən və genişləndiyindən, Vətən müharibəsində qardaş dövlətin mənəvi dəstəyini hər an hiss etməyimizdən danışılıb.



Xoş qarşılanma və mehriban münasibətə görə başçılıq etdiyi qonaq heyəti adından minnətdarlığını bildirən Bursa qazi və şəhid ailələri dərnəyi başkanı Metin Şenol dedi ki, Azərbaycan və Türkiyə tarix boyu həm çətin, həm də xoş günlərdə həmişə bir-birilərinin yanında olublar. İki ölkə, iki xalq xoş günlərin sevincini birgə bayram etdiyi kimi, ən çətin məqamlarda da bir-birilərinə arxa, dayaq durmağı bacarır.

Türkiyə Respublikasının ölkəmizdəki səfiri Cahit Bağçı da soydaşları ilə görüşdü.

Heydər Əliyev mərkəzinin Sumqayıt filialında Azərbaycan Respublikasının Müdafiə Nazirliyinin, Sumqayıt şəhər İcra Hakimiyyətinin əməkdaşlarının, Bursa və Sumqayıt şəhərindən olan şəhid və qazi ailələrinin iştirakı ilə görüş keçirildi. Görüşdə Sumqayıt şəhər İcra Hakimiyyəti başçısının müavini Ülviyyə Müzəfferova bildirdi ki, Azərbaycanla Türkiyə dövlətləri arasında dostluq və qardaşlıq əlaqələri qədim tarixə malikdir. "Əsrlər boyu Azərbaycan və türk xalqları həmişə bir-birinə dəstək olmuş, sıx əməkdaşlıq etmişlər".

Əsas məqsədi hər iki dövlətin şəhid ailələri arasında münasibətlərin qurulmasını təmin etmək və mövcud əlaqələri daha da möhkəmləndirmək olan tədbirdə Azərbaycanın Milli Qəhrəmanı general-mayor Polad Həşimovun anası Səmayə Həşimova qeyd etdi ki, xalqlarımız hər zaman şəhidlərinin xatirəsini ehtiramla yad edir. Hər iki ölkədə yanaşı dalğalanan Azərbaycan və Türkiyə bayraqları ölkələrimizin birliyini nümayiş etdirir: "Azərbaycan-Türkiyə birliyi, dostluğu, qardaşlığı əbədidir".




Sumqayıt şəhər İcra Hakimiyyəti tərəfindən qonaqlara hədiyyələr təqdim olundu.

Türkiyəli və Azərbaycan şəhid ailələrinin iştirakı ilə keçirilən tədbirdə Azərbaycan Müdafiə Nazirliyinin nümayəndələri, o cümlədən millət vəkilləri, Dövlət Sosial Müdafiə Fondunun sədr müavini, eləcə də digər qonaqlar iştirak etdilər.

Türkiyə və Azərbaycanda şəhid ailələrini tanımaq, onların ortaq acılarını paylaşmaq, cəmiyyətlərimiz arasında ortaq platforma yaratmaq məqsədi daşıyan tədbirdə çıxış edən Hüseyin Büyükfırat bildirdi ki, həyata keçirdiyimiz "Tək Millət, Tək Ürək" Beynəlxalq Humanitar Platformasının bir hissəsi olan "Qardaş Ailə" layihəsi çərçivəsində canlarını fəda edən əziz şəhidlərimizin xatirəsini hər zaman böyük ehtiram hissi ilə anır və yad edirik, qazi və şəhid ailələri ilə daim ünsiyyət saxlamağı, onları baş üstündə tutmağı özümüzün ən ümdə vəzifəmiz və borcumuz hesab edirik.

Öncə bu layihə çərçivəsində 9 azərbaycanlı şəhid ailə üzvləri Türkiyənin Sivas, Şanlıurfa, Bursa, Balıkesir, İsparta və Kayseri şəhərlərinə səfərdə olub, qardaş ölkənin şəhid ailələrini ziyarət edib, xoş təəssüratlarla geri dönüb.

Həyata keçirdiyimiz "Tək Millət, Tək Ürək" Beynəlxalq Humanitar Platforması çərçivəsində Şanlı Zəfərimizdən bu günə kimi 2300 qazi və şəhid ailəsi ilə təmas qurmuş, bu və ya başqa formada qardaşlıq, vətəndaşlıq borcumuzu yerinə yetirməyə çalışmışıq.

15 şəhid övladının "Ay-Yıldız" kampı çərçivəsində İstanbul və Çanaqqala Yay Düşərgələrinə səfəri olub. 10 gün davam edən düşərgənin məqsədi gənclərin mədəniyyət və təcrübə mübadiləsində iştirakı, yeni dostluq münasibətlərinin qurulması və beynəlxalq mühitin öyrənilməsi olmuşdur.

19 şəhidin tələbə övladı Türkiyənin Sivas Cümhuriyyət Universitetində təhsil alır.

(Ardı 5-ci səhifədə)

# Eyni ruhu yaşadır Azərbaycan, Türkiyə!



(Əvvəli 4-cü səhifədə)

Müdafiə Nazirliyinin nümayəndəsi çıxışında qeyd edib ki, bu gün ölkələrimiz və xalqlarımız arasında olan münasibətlər dostluğun, qardaşlığın nümunəsi, etalonu kimi dəyərləndirilir. Son dövrlərdə baş verən olaylar - 2020-ci il sentyabrın 27-də başlayıb noyabrın 10-da böyük Zəfərlə yekunlaşan Vətən müharibəsi, işğaldan azad olunmuş ərazilərdə ölkəmizin postmüharibə mərhələsində start verdiyi bərpa işləri, tarixi Şuşa Bəyannaməsinin imzalanması, həmçinin Türkiyədə baş verən zəlzələ zamanı Azərbaycanla Türkiyənin bir-birinə necə möhkəm tellərlə bağlı olduqlarını bütün dünyaya bir daha göstərdi.

Ulu Öndər Heydər Əliyev öz müdrik kəlamları ilə hər iki dövlətin gələcək nəsillərinə əbədi olaraq bir mesaj qoymuşdur: Bir millət, iki dövlət - Azərbaycan-Türkiyə. Türkiyə ilə Azərbaycan arasındakı qardaşlıq münasibətləri hazırda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin və Türkiyə Respublikasının Prezidenti cənab Rəcəb Tayyib Ərdoğanın rəhbərlikləri ilə ən yüksək səviyyədə davam etməkdədir.

Tərtər rayonuna səfər edən qonaqlar ilk olaraq Dövlət rəmzləri muzeyində oldular. Burada qonaqlara Azərbaycan dövlətinin müxtəlif dövrlərinə aid dövlət atributları, pul nümunələri, müstəqil Azərbaycan respublikasının hərbi birləşmələrinə aid geyimlər, döş nişanları və medallar barədə geniş məlumatlar verildi. Vətən müharibəsində Ermənistan silahlı birləşmələri tərəfindən atılan "SMERÇ" raketi ilə dağıdılan, açıq havada fəaliyyət göstərən ev muzeyi ilə, Tərtərə atılan qadağan olunmuş raketlərin qalıqları ilə, rayonun infrastrukturuna dəymiş ziyanı əks etdirən fotostendlərlə tanış oldular. Səfərin davamı olaraq qonaqlar Ağdərə rayonunun Şıxarx qəsəbəsində Vətən müharibəsi şəhidlərinin adını əbədiləşdirən "Vətən Bağı"nda azərbaycanlı şəhid valideynləri ilə birlikdə övladlarının adına ağac əkdilər. Tərtər rayon icra hakimiyyətinin başçısı Müstəqim Məmmədov şəhid ailələrinə Azərbaycan kəlağayısı, Xarıbülbül döş nişanı təqdim etdi.

Suqovuşan və Talış kəndlərində quruculuq işlərini könül xoşluğu ilə izləyən qonaqlar Azərbaycan Ordusunun çavuşu Səməd Xəsənxan oğluna dövlət başçısının hədiyyəsi olan evində çay süfrəsinə qonaq oldular.

Daha sonra qonaqlar "N" hərbi hissəsində Vətən müharibəsi şəhidləri abidəsi önünə əklil qoyub, şəhidlərin xatirəsini ehtiramla andılar. Əsgərlərimizin sosial-məişət şəraiti ilə yaxından tanış oldular. Zabit Seymur Həbibullahov qonaqlara Suqovuşan haqqında geniş məlumat verdi. Türk qazi və şəhid ailələri əsgər süfrəsinə qonaq oldular. Zabit İdris Məhərrəmov birlik komandiri adından göndərilən təşəkkür məktubunu və xatirə hədiyyələrini qonaqlara təqdim etdi.

Hərbi Dəniz Qüvvələrinin "N" hərbi hissəsində də görüş təşkil olundu.

Mütəmadi olaraq şəhid ailələrini, döyüş iştirakçılarını ziyarət edən "Əsgərə Xatirə kitabı" layihəsinin rəhbəri Nuranə Şıxəliyeva da Türkiyə qazi və şəhid ailələri nümayəndələrinin iştirakı ilə tədbir keçirdi.

Azərbaycanın Milli Qəhrəmanı Yuri Kovalyov adına 229 saylı tam orta məktəb və Firidun bəy Köçərli adına Respublika Uşaq Kitabxanasının təşkilatçılığı ilə Azərbaycan və Türkiyə şəhid ailələri nümayəndələrinin iştirakı ilə Azərbaycan tarixinin qəhrəmanlıq səhifəsi olan 20 Yanvar faciəsinin 34-cü ildönümünə həsr olunmuş "Azadlığın zirvə günü" adlı tədbir keçirildi.

Qonaqlar məktəbin həyə-



tində Yuri Kovalyovun və şəhidlərin abidəsi önünə tər çiçəklər düzdülər.

Azərbaycan və Türkiyənin azadlığı uğrunda şəhid olanların xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi, Azərbaycan Respublikasının və Türkiyə Cümhuriyyətinin Dövlət Himnlərinin səsləndirilməsi ilə başlayan tədbirdə məktəbin direktoru Vüsalə Məmmədova və kitabxananın direktoru Şəhla Qənbərova 20 Yanvar hadisələrinə həsr olunan tədbirlərin gənclərin milli ruhda tərbiyə olunmasına, onlara vətənpərvərlik hissinin aşılanmasına xidmət etdiyini bildirdilər.

Elm və Təhsil Nazirliyi yanında Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyinin direktor müavini, Agentliyin Bakı şəhəri üzrə Təhsil İdarəsinin müdiri vəzifəsini müvəqqəti icra edən Mehriban Vəliyeva Azərbaycanın azadlığının, suverenliyinin mücahidlərinə qarşı törədilən cinayətlərdən danışdı, 20 Yanvar hadisələrini tariximizin qəhrəmanlıq səhifəsi, mili birlik və vətənpərvərlik rəmzi kimi qiymətləndirdi.

20 Yanvar hadisələrinə ilk dəfə hüquqi-siyasi qiyməti böyük dövlət xadimi Heydər Əliyevin verdiyini diqqətə çatdıran Mehriban Vəliyeva xalqımızın şəhidlərin adını daim uca tutmasından, onların ailələrinin sosial müdafiəsinə



xüsusi diqqət göstərilməsindən söz açdı. Azərbaycan və Türkiyə arasında dostluq və qardaşlıq əlaqələrinə toxunan natiq hər iki ölkə arasında münasibətlərin tarixi köklərə dayandığını dedi.

Görüşdə 20 Yanvar hadisələrinin xalqımızın Zəfər yolunun başlanğıcı kimi mühüm tarixi və mənəvi mahiyyətə malik olduğu vurğulandı. Çıxış edənlər Azərbaycan və Türkiyədə şəhid ailələrinin hərtərəfli qayğı ilə əhatə olunduqlarını, şəhidliyin hər zaman ehtiramla əhatələndiyini ifadə etdilər.

Tədbirdə şəhid general-mayor Polad Həşimovun həyat yoldaşı, BŞTİ-nin əməkdaşı Ofelya Salmanova Milli Qəhrəmanın qısa və şərəfli ömür yolundan, onunla bağlı xatirələrindən danışdı.

Metin Şenol çıxış edərək Vətən sevgisindən danışdı, Azərbaycan-Türkiyə qardaşlığından, səfər müddətində onlara olan doğma münasibətdən söz açdı.

Tədbir şagirdlərin ifasında



ədəbi-bədii kompozisiyalarla davam etdi.

Qonaqlar səfər müddətində Bakı şəhəri ilə tanışlıq çərçivəsində İçərişəhər dövlət tarixi-memarlıq qoruğu, Qız qalası, Şirvanşahlar sarayı, Xalça muzeyi, Qənimətlər Parkı, Bayraq meydanı, Qobustan Dövlət Tarixi-Bədii qoruğunda oldular.

* * *

Qonaqlarla Müdafiə Nazirliyinin İstirahət Evində növbəti görüş keçirildi. Tədbirdə Müdafiə Nazirliyinin hərbi qulluqçuları, Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin Mahnı və Rəqs ansamblının üzvləri və başqa qonaqlar iştirak etdilər. Ulu Öndər Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda, Türkiyənin müdafiəsi naminə savaşlarda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Azərbaycanın və Türkiyənin Dövlət Himnləri səsləndirildi.

Görüşdə Vətən müharibəsində qardaş Türkiyə xalqının və dövlətinin mənəvi dəstəyindən söz açıldı, qeyd edildi ki, hər zaman Türkiyə Azərbaycanın yanında olub, dar günümüzdə, düşmənlərlə savaşda hər cür mənəvi dəstək göstərib. Ötən əsrin sonlarında ölkə ərazisinin 20 faizinin erməni silahlı birləşmələri tərəfindən işğal edilərək 30 ilə yaxın düşmənin nəzarəti altında qaldığı, İkinci Qarabağ müharibəsində Azərbaycan xalqı və dövləti həmrəylik nümayiş etdirərək əzəli və əbədi torpaqlarımızın düşməndən azad edildiyi bildirildi. Tarixi torpaqlarımızın azad edilməsi istiqamətində Türkiyə dövlətinin qədim dövrlərdə olduğu kimi, bu döyüşlərdə də mənəvi dəstək verən qanı bir, canı bir qardaş dövlət olduğu təsdiqləndi. O da təsdiqləndi ki, bizim üçün Azərbaycan şəhidləri qədər türk şəhidləri də doğmadır, Azərbaycan xalqının böyük oğlu Heydər Əliyevin prezidentliyi dövründə Azərbaycanla Türkiyənin dostluq və qardaşlıq əlaqələri daha da möhkəmləndi. Soyu bir olan bu xalqların dostluq əlaqələrinin köklərinin ən qədim dövrlərə qədər gedib çıxdığı da əlavə edildi.

İstirahət Evinin foyesini Heydər Əliyevin "Bir millət, iki dövlət - Azərbaycan-Türkiyə", Mustafa Kamal Atatürkün "Azərbaycanın kədəri kədərimiz, sevinci sevincimizdir" kəlamları bəzəmişdi.

Tədbirdə şıxış edən zabit Eldəniz Sadıqov türkiyəli şəhid ailələri ilə keçirilən bu görüşün ona xoş təsir bağışladığını dedi. Ölkələrimizi, xalqlarımızı yaşadanlar məhz şəhidlərdir, ona görə də şəhid ailələrinə, döyüşlərdə sağlamlığını itirənlərə hər zaman borclu olduğunu bildirdi.

Zabit Kamil Cəlilov dedi ki, ilk dəfədir Türk şəhid ailələri ilə görüşdük. Bu cür görüşlərin və səfərlərin mütəzəm olması xalqlar arasında dostluq və qardaşlıq əlaqələrinin daha da möhkəmlənməsinə xidmət edir. Hər bir şəhid valideyninə sonsuz minnətdarlığını ifadə etdi.

Tədbirin sonunda Metin Şenol yüksək diqqət və qayğıya görə görüşün təşkilatçılarına dərin minnətdarlığını bildirdi və ölkəmizdə səfərdə olduqları qısa müddətdə bir sıra tarixi yerlərə ekskursiyalardan məmnun qaldıqlarını dedi. Təşkilat adından hərbi qulluqçulara hədiyyələr təqdim olundu.

Bursa-Azərbaycan innovasion və dayanışma dərnəyi idarə heyətinin üzvləri Əhməd Evdalı və Samir Nağdəliyev ilk dəfədir türk şəhid ailələri ilə ölkəmizə gəldiklərini, onların təmsil olunduqları Bursa şəhərində də bu səfərə böyük əhəmiyyət verildiyini, türk xalqının böyük marağına səbəb olduğunu bildirdilər.

Tədbirdə Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin Mahnı və Rəqs ansamblının solistləri - Elçin Məmmədov, Vüsal Ağayev, Zümrüd Quliyeva, Gülnar Mirzəyeva və Nigar Rəhimova vətənpərvərlik mahnıları ifa etdilər.

Bu səmimi görüşdə təsdiqləndi ki, Azərbaycanda da, Türkiyədə də şəhid ailələrinə, qazilərə, müharibə veteranlarına yüksək dövlət qayğısı vardır.

**Kapitan**
**Günay TAĞIYEVA,**
**Bəxtiyar ƏLİYEV**
**"Azərbaycan Ordusu"**

# Azərbaycan Ordusunun şəxsi heyəti ilə keçirilən ictimai-siyasi hazırlıq dərsi

## (İctimai-siyasi hazırlıq dərsinin qrup rəhbərinə kömək)

**Mövzu:** Azərbaycan Respublikasının müdafiə qüdrətinin və ordunun döyüş qabiliyyətinin daha da yüksəldilməsinə yönəldilmiş fəaliyyətlər. Müasir dövrdə hərbi hissə və birləşmələrin əsas vəzifələri.

**Suallar:**

**1. Azərbaycan Respublikası rəhbərliyinin ölkənin müdafiə qüdrətinin və ordunun döyüş qabiliyyətinin daha da yüksəldilməsinə yönəlmiş fəaliyyəti.**

**2. Hərbi hissə və birləşmələrin müasir dövrdə əsas vəzifələri.**

### Azərbaycan Respublikası rəhbərliyinin ölkənin müdafiə qüdrətinin və ordunun döyüş qabiliyyətinin daha da yüksəldilməsinə yönəlmiş fəaliyyəti

Hər bir dövlətin gücünü müəyyən edən əsas amillərdən biri onun hərbi potensialı və müdafiə qabiliyyətidir. Azərbaycan Respublikası beynəlxalq aləmdə güclü iqtisadiyyata malik bir ölkə kimi tanınmaqla yanaşı, həm də NATO standartlarına uyğunlaşmış modern bir ordusunun olması ilə də diqqəti çəkir. Ordu dövlətin təməl prinsiplərindən biri, təhlükəsizliyin əsas təminatçısıdır. Sabitlik, dinamik inkişaf və güclü ordu quruculuğu müasir Azərbaycan üçün əsas xarakterik cəhətlərdir və bu cəhətlər bir-birinə sıx bağlıdır.

Azərbaycan Ordusunun dünyanın ən güclü orduları sırasında yer alması təsadüfi deyil. Bunu təmin edən amil Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin əsasını qoyduğu nizamı və güclü ordu quruculuğu Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin uğurla davam etdirdiyi müdrik siyasət nəticəsində gündəngünə daha da möhkəmləməsidir, döyüş qabiliyyətini artımasıdır. Müstəqil ölkəmizin güclü və qüdrətli ordusunun memarı olan Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə müstəqillik illərində ordu quruculuğu prosesinin dövrün çağırışlarına müvafiq olaraq ardıcıllıqla həyata keçirilməsi Azərbaycanın hərbi qüdrətinin artırılması işinə mühüm töhfələr vermişdir.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin müstəqil dövlət quruculuğunun bütün sahələri kimi, ordu quruculuğu sahəsində də uğurla həyata keçirilən siyasəti nəticəsində Azərbaycan Ordusu bölgədə dünyanın inkişaf etmiş orduları arasında da özünə layiqli yer tutub. Qoşunların maddi-texniki bazasının davamlı olaraq təkmilləşdirilməsi, döyüş hazırlığının real döyüş vəziyyətinə daha da yaxınlaşdırılması, Silahlı Qüvvələrdə mənəvi əhval-ruhiyyənin daha da sağlamlaşdırılması, ordunun milli kadr hazırlığının uğurla davam etdirilməsi, ordunun struktur islahatlarının vəzifələrə uyğun aparılması, hərbi intizamın gücləndirilməsi, şəxsi heyətə sosial qayğının daim diqqət mərkəzində saxlanılması Azərbaycan Ordusunun daha da güclənməsinə imkan yaradıb. Yüksək kadr potensialı və geniş maddi-texniki bazası olan yerli hərbi məktəblərlə yanaşı, hərbçilərimiz bir sıra vacib ixtisaslar üzrə təhsil almaq üçün Türkiyənin, Rusiyanın, Pakistanın hərbi məktəblərinə və digər ölkələrə göndərilir. Eyni zamanda, Azərbaycan hərbçiləri NATO-nun "Sülh Naminə Tərəfdaşlıq" proqramı çərçivəsində təşkil olunan müxtəlif ixtisasartırma və təlim kurslarında da yaxından iştirak edirlər. Azərbaycanın NATO ilə əlaqələri artıq "Fərdi Tərəfdaşlığın Fəaliyyət Planı" çərçivəsində inkişaf edir. Bu isə ordu quruculuğu prosesində növbəti nailiyyətlərin qazanılması üçün möhkəm təməl deməkdir.

Azərbaycan Respublikasının müdafiə sisteminin gücləndirilməsi, Silahlı Qüvvələrin tərkibində olan bütün qoşunlarda həyata keçirilən islahatlar Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin öz vədinə sadiqliyini təsdiq edir. Bu illərdə dövlət başçısının xüsusi nəzarəti, tapşırıqları, göstərişləri və təşəbbüsləri ilə təhlükəsizlik siyasətini həyata keçirən və bu istiqamətdə praktik fəaliyyət göstərən strukturlarda ilk növbədə ordunun yüksək döyüş hazırlığı səviyyəsinə gətirilməsi üçün gərgin, səmərəli, məqsədyönlü iş aparılmışdır. Azərbaycanın maliyyə imkanlarının artması nəticəsində Silahlı Qüvvələrin tərkibindəki bütün qoşunların döyüş imkanlarının artırılması və ən müasir tələblər səviyyəsinə çatdırılması üçün qabaqcıl dövlətlərlə gərəkli əməkdaşlıq həyata keçirildi. Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin məqsədyönlü fəaliyyəti nəticəsində Azərbaycan Ordusu arsenalını modern silah və hərbi texnika ilə zənginləşdirir, müasir döyüş imkanlarını uğurla mənimsəyir. İkinci Qarabağ müharibəsində qazandığı tarixi Zəfər, postmüharibə dövründə qələbə ilə yekunlaşan digər əməliyyatlar və sentyabr ayında cəmi bir günə uğurla başa çatdırdığı lokal xarakterli antiterror tədbirləri ordumuzun gücünü bir daha bütün dünyaya sübut etdi.

Müstəqil Azərbaycan dövlətinin qurucusu Ulu Öndər Heydər Əliyevin ideyaları əsasında tərəqqi yolunda inamla addımlayan dövlətimiz hazırda iqtisadi, sosial, siyasi və mədəni həyatında böyük təkamül yolunu inamla keçərək sabit, təhlükəsiz və müasir həyat səviyyəsini təmin etmiş ölkə kimi tanındı. Ölkənin beynəlxalq nüfuzu əhəmiyyətli dərəcədə artmış, cəmiyyətdə dövlətçilik ənənələri güclənmiş, müasir sosial-iqtisadi infrastruktur quruculuğu uğurla həyata keçirilmişdir. Tarixi ərazi bütövlüyünü təmin etməklə ölkəmiz yeni qlobal reallıqlar fonunda növbəti və daha böyük transformasiya astanasına keçid edir.

Silahlı Qüvvələrin gücü təkcə ölkənin hərbi qüdrəti deyil, həm də dövlətin beynəlxalq siyasət və təhlükəsizlik arenasında mövqeyinin qorunması baxımından əhəmiyyətli amildir. Azərbaycan Respublikası dünya miqyasında sabit və dayanıqlı iqtisadiyyatı, eləcə də böyük maliyyə resursları olan, mühüm geosiyasi və geoiqtisadi mövqe tutan, qlobal enerji təhlükəsizliyinin təminatında strateji rol oynayan dövlətə çevrilmişdir. Artan iqtisadi güc və beynəlxalq nüfuz Azərbaycan Respublikasına Cənubi Qafqazın və ətraf regionların iqtisadiyyatlarının mənzərəsini dəyişdirməyə qadir olan iri layihələrin təşəbbüskarı kimi çıxış etmək imkanı yaratmışdır.

Təbii ki, Azərbaycan hərbi potensialını genişləndirmək üçün özünün sürətlə artan iqtisadi imkanlarından hərtərəfli şəkildə bəhrələnir və bu, lazımi səviyyədə həyata keçirilməkdədir. Bu gün ən müasir silah-sursat, daha çox yüksək dəqiqliyə, böyük dağıdıcı qüvvəyə malik olan silahlar alınır və müasirləşmə prosesi müntəzəm aparılır. Görülən işlərlə yanaşı, ölkəmizdə hərbi sənaye də çox sürətlə inkişaf edir. Məhz uğurlu siyasət nəticəsində Müdafiə Sənayesi Nazirliyində müdafiə təyinatlı məmulatların istehsalının həyata keçirilməsi ölkəmizin hərbi qüdrətinin artmasının mühüm göstəricilərindən biri olmaqla yanaşı, ordumuzun potensialını da gücləndirir. Görülən işlərin nəticəsidir ki, Azərbaycan Ordusu quruda, suda və havada döyüş tapşırıqlarını yerinə yetirmək, ölkəni istənilən hücumdan müdafiə etmək qüdrətinə malikdir. Beynəlxalq hərbi tədqiqat mərkəzlərinin rəyinə görə, Azərbaycan Ordusu regionun ən hazırlıqlı və müasir hərbi strukturu sayılır. Ordumuz, həmçinin, dünyanın ən güclü 50 ordusu sırasındadır.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsində başlıca rol oynayan, Azərbaycan hərb salnaməsinin qürurlu səhifəsini yazan rəşadətli Azərbaycan Ordusu döyüş meydanındakı əməliyyatları ilə dünyanın hərb tarixində yeni nümunələr yaratdı. Silahlı Qüvvələrimizin ötən son 21 ildə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin xüsusi diqqəti altında həyata keçirilən hərbi siyasətin səmərəliliyi təcəssümünü döyüş meydanında tapdı.

### Müasir dövrdə hərbi hissə və birləşmələrin əsas vəzifələri

Azərbaycanda ordu quruculuğu dövlət səviyyəsində, dövlətin yaxından iştirakı və qayğısı ilə aparılmaqdadır. Bu iş şəxsən Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi və nəzarəti altında həyata keçirilir. Dünyanın inkişaf etmiş ölkələrinin hərbi quruculuq təcrübəsi öyrənilir və müasir tələblərə cavab verən ordu yaratmaq istiqamətində işlər aparılır. Azərbaycan Ordusu yeni inkişaf mərhələsinə qədəm qoyub və yüksək hərbi intizamın saxlanılması üçün müvafiq tədbirlər görülərək islahatlar aparılır.

Bu gün iqtisadi yüksəlişi ilə diqqətləri özünə cəlb edən ölkəmiz yaradılmış qüdrətli ordusu ilə də hər bir azərbaycanlının qürur mənbəyinə çevrilib. Bütün dünya Cənubi Qafqazın lider dövləti olan Azərbaycan Respublikasının regionun ən qüdrətli ordusuna malik olduğunu təsdiq edir. Azərbaycan Respublikasının Ermənistanın işğaldan azad edilmiş ərazilərdə hərbi hissələrin müasir standartlara uyğun qurulması, şəxsi heyətin həyat və məişət şəraitinin yaxşılaşdırılması, müasir silahlarla təminatı istiqamətində görülən işlər sayəsində Azərbaycan Ordusu dünyanın ən güclü orduları ilə bir cərgədə öz layiqli yerini tutub.

Azərbaycan Ordusunun ölkəmizin suverenliyinin, ərazi bütövlüyünün bərpası uğrunda apardığı uğurlu əməliyyatlar bir daha sübut edir ki, ordu quruculuğu istiqamətində aparılan dövlət siyasəti Azərbaycan Ordusunun möhkəmlənməsinə və peşəkarlığının yüksəlməstnə xidmət edir. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev çıxışlarında dəfələrlə deyib ki, ordu quruculuğu, müdafiə potensialının möhkəmlənməsi və güclü ordunun yaranması dövlət üçün, hökumət üçün və hər bir vətəndaş üçün bir nömrəli vəzifədir. Biz bu istiqamətdə səylərimizi davam etdirərək, hər an dövlətimizin müstəqilliyini qorumağa hazır olmalıyıq. Ordumuzun gücünü artıran, hərbçilərimizin döyüş əhval-ruhiyyəsini yüksəldən əsas amillərdən biri də Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin hərbi hissələrə ardıcıl səfərlər etməsi və hərbi qulluqçularla görüşməsidir. Bu görüşlərdə hərbi qulluqçulara orduya, dövlətə sonsuz sədaqət aşılayan Silahlı Qüvvələrin Ali Baş Komandanı bununla da orduya diqqət və qayğısını əyani şəkildə nümayiş etdirir.

Dövlətimizin regionda müstəqil siyasət apara bilməsi üçün yüksək döyüş hazırlıqlı ordusu olmalıdır. Yaranmış hərbi-siyasi vəziyyət Azərbaycan Ordusunun hissə və birləşmələrinin daim döyüş hazırlıqlı, Azərbaycanın müstəqilliyinə və ərazi bütövlüyünə qarşı yönəldilən hər bir təcavüzə, terror əməliyyatına layiqli cavab verməyə qadir olmağı tələb edir. Bunun üçün Azərbaycan Ordusunun qarşısında 2024-cü tədris ilində aşağıdakı əsas vəzifələr qoyulmuşdur:

- 2023-cü tədris ilində döyüş və mənəvi-psixoloji hazırlıqda əldə olunmuş nəticələrlə kifayətlənməməli, döyüş hazırlığının daha da təkmilləşdirilməsi, şəxsi heyətin döyüş ruhunun yüksək səviyyədə saxlanılması;
- şəxsi heyətin Azərbaycan xalqına, dövlətinə və Prezidentinə sədaqətli olması, respublikanın suverenliyinin, ərazi bütövlüyünün və dövlətçiliyinin müdafiəsi üçün şəxsi məsuliyyət, hərbi yoldaşlıq, dostluq və qardaşlıq, hərbi hissəsinin döyüş ənənələrinə hörmət, hərbi borcu şüurlu surətdə yerinə yetirməsi və döyüş bayrağına sədaqət ruhunda tərbiyə edilməsi;
- Azərbaycan Ordusunun nüfuzunun artırılması, hərbi qulluqçularda yüksək vətənpərvərlik təfəkkürünün, şəxsi heyətin azərbaycançılıq, Vətəninə, Hərbi Anda və xalqına sədaqət ruhunda tərbiyə edilməsi, hərbi qulluqçularda Azərbaycan xalqının tarixinə, milli adət və ənənələrinə dərin hörmətlə yanaşma tərzinin, Konstitusiyaya və vətəndaşlıq borcunun yerinə yetirilməsinə yüksək döyüş və mənəvi-psixoloji keyfiyyətlərinin formalaşdırılması.

Bu gün Azərbaycan Ordusunun qarşısında respublikanın suverenliyini, ərazi bütövlüyünü və dövlətçiliyinin müdafiəsini ayıq-sayıq qorumaq vəzifəsi durur. Hər bir hərbi qulluqçu dərk etməlidir ki, o öz vəzifə borcunu vicdanla yerinə yetirməklə, döyüş və ictimai-siyasi hazırlıq dərslərində, təlimlərdə, hərbi biliklərə dərindən yiyələnməklə, mənəvi-psixoloji və fiziki hazırlığını artırmaqla, intizamlı olmaqla, Azərbaycan Ordusunun inkişafını yeni bir səviyyəsinə yüksəldəcək.

**Qeyd**: *İctimai-siyasi hazırlıq qrupunun rəhbəri mövzunu şərh edərkən hərbi hissənin, öz bölməsinin 2023-cü tədris ilində döyüş və ictimai-siyasi hazırlığında qazandığı nəticələri bir daha dinləyicilərin nəzərinə çatdırmalı, 2024-cü tədris ilində hərbi hissənin, bölmənin qarşısına qoyulmuş tapşırıqların çatdırılmasına və izah edilməsinə xüsusi diqqət yetirməlidir.*

**İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsi**

## Şəhidin döyüş yoldaşları onun dünyaya yeni gələn övladını ziyarət ediblər





Azərbaycan Ordusu tərəfindən Qarabağ iqtisadi rayonunda keçirilən lokal xarakterli antiterror tədbirləri zamanı şəhid olan Asim Abdullayevin qız övladı dünyaya gəlib.

Qəhrəman hərbi qulluqçumuzun döyüş yoldaşları şəhidin həyat yoldaşını və körpəni ziyarət edib, ailə üzvlərinə göz aydınlığı veriblər.

AZƏRTAC xəbər verir ki, bu barədə Müdafiə Nazirliyi məlumat yayıb.

Bildirilib ki, ziyarət zamanı şəhidlərimizin xatirəsinin hər zaman uca tutulduğu, dövlət rəhbərliyinin diqqət və qayğısı ilə daim əhatə olunduğu xüsusi vurğulanıb.

Qeyd edək ki, Azərbaycan Ordusunun kiçik çavuşu olan Asim Abdullayev Azərbaycan Ordusu tərəfindən həyata keçirilmiş uğurlu lokal antiterror tədbirləri zamanı sentyabrın 23-də Ağdərə rayonunda şəhid olub.

## Hərbi qulluqçuların asudə vaxtı səmərəli təşkil olunur





Azərbaycan Ordusunda şəxsi heyətin asudə vaxtının səmərəli təşkili məqsədilə mütəmadi olaraq tədbirlər keçirilir.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, "N" hərbi hissəsində Azərbaycan Ordusunun hərbi qulluqçularının mənəvi-psixoloji vəziyyətinə müsbət təsir göstərmək, şəxsi heyətin ruh yüksəkliyini daha da artırmaq və asudə vaxtının səmərəli təşkili məqsədilə Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin kollektivinin təqdimatında mədəni-kütləvi tədbir keçirilib.

Tədbirdə əvvəlcə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və Vətənimizin müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Hərbi qulluqçulara vətənpərvərlik mövzusunda konsert proqramı təqdim edilib.

## Yeni gələn çağırışçıların hərbi hissələrdə qəbulu davam edir

Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamının icrası ilə bağlı Azərbaycan Ordusunun təlim hərbi hissələrində gənc əsgərlərin qəbulu prosesi davam edir.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, xidmətə yeni gələn çağırışçılar hərbi hissələrin qəbul məntəqələrində qeydiyyatdan keçir, tibb məntəqələrində hərbi həkim komissiyası tərəfindən təkrar müayinə olunur, sonra mövsümə uyğun hərbi geyim və digər təminat növləri ilə təmin edilirlər.



Bütün hərbi hissələrdə şəxsi heyətin qidalanmasına xüsusi diqqət yetirilir. Əsgər yeməkxanalarında sanitar-gigiyenik qaydalara tam riayət olunmaqla yüksək kalorili, keyfiyyətli yeməklər hazırlanır.

Çağırışçılar hərbi xidmətin xüsusiyyətləri, təhlükəsizlik qaydaları, nizamnamələrin tələbləri barədə ətraflı məlumatlandırılır. Onlarla maarifləndirici və fərdi söhbətlər aparılaraq, psixoloji xüsusiyyətləri öyrənilir.

Gənc əsgərlərin hazırlığı proqramına uyğun olaraq çağırışçılarla fərdi hazırlıq məşğələləri keçirilir.

## Qarabağ bölgəsində növbəti silah-sursat anbarı aşkar edilib







Azərbaycan Ordusu tərəfindən həyata keçirilən lokal xarakterli antiterror tədbirlərindən sonra Qarabağ iqtisadi rayonunda tərk edilmiş tikililərə baxış zamanı növbəti silah-sursat anbarı aşkar edilib.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, Ermənistan silahlı qüvvələri birləşmələrinin və qeyri-qanuni erməni silahlı dəstələrinin hərbi məqsədlər üçün istifadə etdiyi mülki təyinatlı infrastrukturdan silah və sursatla dolu yeşiklər, müxtəlif tipli qumbaraatanlar üçün mərmilər, piyada və tank əleyhinə minalar və raketlər müsadirə edilib.

# Xəbərlər: hadisələr, faktlar

### Yaşar Güler: Ağır itkiyə uğrayan PKK əməliyyat bölgələrimizi hədəf alıb



Türkiyə Silahlı Qüvvələri tərəfindən 2019-cu ildə başladılan "Pəncə-Kilid" antiterror əməliyyatı bölgəsinin 30 kilometr dərinliyində təhlükəsiz xətt yaradılıb.

Bunu Türkiyənin milli müdafiə naziri Yaşar Güler deyib.

Nazir bildirib ki, "Pəncə" əməliyyatlarının gedişində ağır itkilərə məruz qalan PKK terror təşkilatı əməliyyat bölgələrini hədəf alıb.

Ümumilikdə Türkiyənin baza ərazilərinə PKK terrorçuları tərəfindən 3 min 151 təxribat və sızma cəhdinin olduğunu qeyd edən nazirin sözlərinə görə, bu hücumlara cavab olaraq İraqın şimalında 1689 terrorçu zərərsizləşdirilib. Son bir neçə gün ərzində terrorçulara aid 114 hədəf və 78 terrorçu məhv edilib.

### Qırğızıstanda hərbi helikopter qəzaya uğrayıb



Bişkekdə Mi-8 helikopterinin qəzaya uğraması nəticəsində bir nəfər həlak olub, yeddi nəfər yaralanıb. Xəsarət alanların dördü reanimasiya şöbəsinə yerləşdirilib.

Hadisə yanvarın 17-də yerli vaxtla saat 10:55-də baş verib. Mi-8 helikopteri "Frunze-1" aviabazasında qəzaya uğrayıb.

Məlumata görə, helikopter Qırğızıstanın Hava Hücumundan Müdafiə Qüvvələrinə məxsusdur. Müdafiə Nazirliyi helikopterin təlim uçuşları zamanı sərt eniş etdiyini və xəsarət alanların olduğunu təsdiqləyib.

### Husilər Yəmən sahillərində "Zografia" yük gəmisini vurduqlarını təsdiqləyiblər



"Ənsar Allah" üsyançı hərəkatından olan husilər Yəmən sahillərində Yunanıstana məxsus "Zografia" yük gəmisinə hücuma görə məsuliyyəti öz üzərlərinə götürüblər.

Bu barədə hərəkatın hərbi nümayəndəsi Yəhya Saria özünün teleqram kanalında bəyanat yayıb.

Yəhya Saria qeyd edib ki, Fələstinin limanlarına gedən gəminin heyəti xəbərdarlıq siqnallarına cavab vermədiyinə görə, onlara qarşı bir neçə raket atılıb.

### İsrail ordusu Livanda Hizbullahın onlarla hədəfinə zərbələr endirib



İsrail hərbçiləri Livanda Hizbullah təşkilatının silahlı birləşmələrinin istifadə etdiyi onlarla obyektə irimiqyaslı zərbələr endirib.

Bu barədə İsrail ordusunun mətbuat xidməti məlumat yayıb.

"İsrail Müdafiə Qüvvələri Livanın Vadi Saluki bölgəsində Hizbullah terror təşkilatının bir sıra hədəflərinə qarşı birgə hava və artilleriya zərbələrini tamamlayıb. Qısa müddət ərzində Hizbullahın onlarla mövqeyi, hərbi strukturları və silah infrastrukturu vuruldu", - deyə mətbuat xidmətindən bildirilib.

İsrail ordusunun məlumatına görə, silahlı Hizbullah birləşmələri Livanın cənubundakı bu ərazidən terrorçuluq fəaliyyəti üçün istifadə edir. "Terror təşkilatı tərəfindən İsrailin mülki əhalisinə və hərbçilərinə hücum etmək məqsədilə meşəlik ərazidə çoxlu sayda texniki avadanlıq və infrastruktur obyektləri gizlədilib", - deyə ordunun mətbuat xidməti əlavə edib.

**AZƏRTAC-ın materialları əsasında**

# "N" hərbi hissəsinin yaranmasının ildönümü qeyd edilib

*Müdafiə Nazirliyinin "N" hərbi hissəsinin yaranmasının ildönümü günü münasibətilə şəhid ailələrinin, veteranların və ictimaiyyət nümayəndələrinin iştirakı ilə tədbir keçirilib.*



Əvvəlcə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin, Vətənimizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Tədbirdə hərbi hissənin yaranması və döyüş yolu barədə iştirakçılara ətraflı məlumat verilib. Qeyd edilib ki, hərbi hissə yarandığı gündən Vətənimizin ərazi bütövlüyü uğrunda qarşıya qoyulan bütün tapşırıqların öhdəsindən layiqincə gəlib. Vətən müharibəsində və sonrakı əməliyyatlarda hərbi hissənin şəxsi heyəti igidlik və rəşadətləri ilə adlarını tariximizin şanlı səhifələrinə yazdırıb.

Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun gündən-günə qüdrətlənməsi və döyüş qabiliyyətinin artması qeyd edilib, ordumuzun ərazi bütövlüyümüzü qorumağa hər zaman hazır olduğu əminliklə vurğulanıb.

Hərbi xidmətdə fərqlənən bir qrup hərbi qulluqçu mükafatlandırıldıqdan sonra tədbir konsert proqramı ilə başa çatıb.

**"Azərbaycan Ordusu"**

# Milli Müdafiə Universiteti Hərbi Elmi-Tədqiqat İnstitutunun adyunkturasına qəbul elan edir

Milli Müdafiə Universitetinin Hərbi Elmi-Tədqiqat İnstitutu 2024-2025-ci tədris ili üçün fəlsəfə doktoru və elmlər doktoru proqramları üzrə adyunkturaya qiyabi və dissertantlıq yolu ilə qəbul elan edir.

Qəbul "Milli təhlükəsizlik və hərbi elmlər" elm sahəsinə aid aşağıdakı ixtisaslar üzrə elan olunur:
- hərbi nəzəri elmlər;
- hərbi xüsusi elmlər;
- hərbi təbabət;
- milli təhlükəsizlik.

Fəlsəfə doktoru proqramı üzrə adyunkturaya ali təhsil pilləsinin magistratura səviyyəsini bitirən (magistr dissertasiyasını müdafiə edən), yaxud təhsili ona bərabər tutulan (tibbi təhsildə isə həkim-mütəxəssis), Silahlı Qüvvələrdə həqiqi hərbi xidmətdə olan zabitlər və dövlət orqanlarında işləyən mülki işçilər, həmçinin dövlətlərarası müqavilələrə əsasən xarici ölkələrin Silahlı Qüvvələrinin zabitləri qəbul edilirlər. Mülki ali təhsil müəssisələrini bitirən zabitlər iki ildən az olmayaraq xidmət təcrübəsinə malik olmalıdırlar.

Elmlər doktoru proqramı üzrə adyunkturaya seçdikləri sahədə elmi və ya elmi- pedaqoji nailiyyəti olan, fundamental tədqiqatları yüksək səviyyədə aparmağa qadir və "Fəlsəfə doktoru" (elmlər namizədi) elmi dərəcəsi olan hərbi qulluqçular (mülki işçilər) qəbul edilirlər.

Fəlsəfə doktoru proqramı üzrə adyunkturaya qiyabi təhsil üçün müraciət etmiş namizədlər xarici dildən (ingilis, alman və ya fransız dillərindən biri, rus dili istisna olmaqla, seçim sərbəst və ya ixtisasa uyğun olmalıdır), ali təhsil pilləsinin magistratura səviyyəsi üçün qüvvədə olan tədris proqramları həcmində fəlsəfədən və ixtisas fənnindən qəbul imtahanları verirlər. Xarici dil üzrə imtahanda iştirak etməyən namizədlər fəlsəfə üzrə imtahana, fəlsəfə üzrə imtahanda iştirak etməyənlər isə ixtisas fənnindən imtahana buraxılmırlar.

Xarici dil üzrə imtahan Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi (DİM) tərəfindən keçirilir və keçid balı DİM tərəfindən müəyyənləşdirilir. DİM tərəfindən müəyyən edilən keçid balını toplayan namizədlər növbəti imtahanlara buraxılırlar.

Xarici dil üzrə qüvvədə olan beynəlxalq dil sertifikatına (IELTS, TOEFL, Test-DaF, DELF, DALF və STANAG 2.2.2.2) malik olan namizədlər xarici dil üzrə qəbul imtahanından azad olunurlar. Beynəlxalq dil sertifikatının imtahan nəticələrinin keçid balına ekvivalentliyi Müdafiə Nazirliyi ilə razılaşdırılmaqla, DİM tərəfindən müəyyənləşdirilir.

Dissertantlıq yolu ilə "Fəlsəfə doktoru" elmi dərəcəsi almaq hüququna tədqiqat sahəsində müəyyən nailiyyətləri olan, ən azı iki il elmi və ya elmi-pedaqoji iş stajına malik və əsas iş yeri ali təhsil müəssisəsi, elmi müəssisə və ya təşkilat olan elmi və elmi-pedaqoji kadrlar malikdirlər.

Dissertantlıq yolu ilə "Fəlsəfə doktoru" elmi dərəcəsi almaq üçün müraciət edən namizədlər digər namizədlər kimi xarici dil üzrə yuxarıda göstərilən qaydalar əsasında DİM-in keçirdiyi qəbul imtahanlarında iştirak etməlidirlər.

Dissertantlıq yolu ilə "Elmlər doktoru" elmi dərəcəsi almaq hüququna "Fəlsəfə doktoru" (elmlər namizədi) elmi dərəcəsi olan və əsas iş yeri ali təhsil müəssisəsi, elmi müəssisə və ya təşkilat olan elmi və elmi-pedaqoji kadrlar müraciət edə bilərlər.

Fəlsəfə doktoru hazırlığı üzrə adyunkturaya (doktoranturaya) qəbul üçün aşağıdakı sənədlər təqdim edilir:
- ali təhsil müəssisəsini bitirmək haqqında diplomun müvafiq qaydada təsdiq edilmiş surəti (xarici ölkələrdə təhsil almış zabitlər (mülki işçilər) üçün təhsil sənədlərinin tanınması haqqında şəhadətnamə);
- ali təhsilin magistr pilləsini bitirdikdən sonra adyunkturaya daxil olanlar üçün ali təhsil müəssisəsinin elmi şurasının vəsatəti (əgər varsa);
- xidməti (iş yerindən) xasiyyətnamə;
- kadrların şəxsi-qeydiyyat vərəqi və ya arayış-məlumat;
- tərcümeyi-hal;
- 2 ədəd fotoşəkil (3x4 ölçüdə);
- şəxsiyyəti təsdiq edən sənədin surəti;
- cari il üçün nəzərdə tutulmuş növbəti məzuniyyətdən istifadə edilməsi barədə arayış (əyani təhsil almaq istəyənlər üçün (bu arayış imtahanlardan öncə də təqdim edilə bilər)).
- çap olunmuş elmi işlərin siyahısı və ya seçilmiş ixtisas üzrə referat (azı 2 elmi məqalə);

Elmlər doktoru hazırlığı üzrə adyunkturaya (doktoranturaya) qəbul üçün aşağıdakı sənədlər təqdim edilir:
- ali təhsil müəssisəsini bitirmək haqqında diplomun müvafiq qaydada təsdiq edilmiş surəti (xarici ölkələrdə təhsil almış hərbi qulluqçular (mülki işçilər) üçün təhsil sənədlərinin tanınması haqqında şəhadətnamə);
- "Fəlsəfə doktoru" elmi dərəcəsi diplomunun müvafiq qaydada təsdiq edilmiş surəti (bu diplomu xarici ölkələrdə almış hərbi qulluqçular (mülki işçilər) üçün təkrar attestasiya (nostrifikasiya) diplomu);
- çap olunmuş elmi işlərin siyahısı;
- dissertasiyanın açıq planı;
- dissertasiyanın aid olduğu sahə üzrə iki elmlər doktoru elmi dərəcəsi olan mütəxəssisdən alınmış yazılı rəy;
- xidməti (iş yerindən) xasiyyətnamə;
- əmək kitabçasından çıxarış (mülki işçilər);
- kadrların şəxsi-qeydiyyat vərəqi;
- tərcümeyi-hal;
- 2 ədəd fotoşəkil (3x4 ölçüdə);
- şəxsiyyəti təsdiq edən sənədin surəti.

Müdafiə Nazirliyinin tabeliyində olan hərbi hissələrdən, təşkilatlardan və ali təhsil müəssisələrindən Adyunkturaya qəbul olmaq üçün raportlar komanda üzrə 30.04.2024-cü il tarixinədək hərbi hissələrin komandirlərinə, hərbi-elmi (elmi-tədqiqat) və hərbi təşkilatların, ali təhsil müəssisələrinin rəislərinə təqdim edilməlidir.

Hərbi hissə komandirləri, hərbi-elmi (elmi tədqiqat) və hərbi təşkilatların, ali təhsil müəssisələrinin rəisləri adyunkturada təhsil almaq üçün müraciət etmiş namizədlərin raportlarını ona əlavə olunan sənədlərlə birlikdə 10 may 2024-cü il tarixinədək komanda üzrə Milli Müdafiə Universitetinin rektoruna göndərməlidirlər.

Digər dövlət orqanlarından adyunkturada təhsil almaq üçün müraciət etmiş namizədlərin raportları (ərizələri) ona əlavə olunan sənədlərlə birlikdə 10 may 2024-cü il tarixinədək Azərbaycan Respublikası müdafiə nazirinə ünvanlanmalıdır.

**Ünvan**: Bakı şəhəri, Şəfaət Mehdiyev küçəsi 136, "Qızıl Şərq" hərbi şəhərciyi. Milli Müdafiə Universiteti.

**Əlaqə telefonu**:
(070) 277-43-81;
(055) 700-52-64;
(012) 404-18-49.

# İdman

## Azərbaycanlı yunan-Roma güləşçisi qızıl medal qazanıb



Xorvatiyada keçirilən güləş üzrə "Zaqreb Open" turniri başa çatıb. Yarışın son günündə yunan-Roma güləşi üzrə Azərbaycan millisinin 6 üzvü mübarizəyə qoşulub. Ülvü Qənizadə (72 kiloqram) həlledici görüşdə macarıstanlı Levente Levaya qalib gələrək (7:0) qızıl medalın sahibi olub.

Nihat Məmmədli (60 kiloqram), Murad Əhmədiyev, Murat Lokyayev (hər ikisi 97 kiloqram), Beka Kandelaki və Sabah Şəriəti (hər ikisi 130 kiloqram) məşqçilər korpusunun etimadını doğrulda bilməyib.

Bununla da Azərbaycan güləşçiləri ilin ilk reytinq turnirinə 2 qızıl və 5 bürünc medalla yekun vurublar.

## Azərbaycan "Paris-2024" Yay Paralimpiya Oyunlarına daha üç lisenziya qazanıb



Bununla bağlı Dünya Taekvondosu quruma rəsmi məktub göndərib.

Sabir Zeynalov (58 kiloqram), İmaməddin Xəlilov (70 kiloqram) və Əbülfəz Abuzərli (80 kiloqram) reytinq cədvəlinə əsasən Paralimpiadaya vəsiqə əldə ediblər. Onların hər üçünün qarşıdakı yarışların nəticəsindən asılı olmayaq, ilk "altılıq"da yer alacağı rəsmiləşib.

Parataekvondoçular Fransanın paytaxtında K-44 kateqoriyasında mübarizə aparacaqlar.

"Paris-2024" Yay Paralimpiya Oyunları avqustun 28-dən sentyabrın 8-dək Fransada keçiriləcək.

## Lionel Messi ötən ilin ən yaxşı futbolçusu seçilib



Argentinalı hücumçu Lionel Messi Beynəlxalq Futbol Federasiyası (FIFA) tərəfindən 2023-cü ilin ən yaxşı futbolçusu seçilib.

Mükafatlandırma mərasimi Londonda keçirilib.

Mükafata İngiltərənin "Mançester Siti" klubunda çıxış edən norveçli hücumçu Erlinq Haaland və fransalı PSJ-nin hücumçusu Kilian Mbappe də namizəd olub.

Qeyd edək ki, 2022-ci ilin dekabrında Messi Argentina millisinin tərkibində Qətərdə dünya çempionu oldu. Hücumçu yeddi matçda yeddi qol vuraraq turnirin ən yaxşı oyunçusu kimi tanınıb. Forvard ötən mövsümü "Paris Saint-Germain"də keçirib. Burada Fransa çempionu və turnirin ən yaxşı assistenti (16 məhsuldar ötürmə) olub.

**AZƏRTAC-ın materialları əsasında**

Kapitan Heydərov Əli Fərmayıl oğluna məxsus MN № 0047679 nömrəli zabitin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Baş leytenant Bağırov Turqut Əhliman oğluna məxsus MN № 0056358 nömrəli zabitin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Leytenant Mirzalıyev Nəcməddin Bulud oğluna məxsus MN № 0013775 nömrəli zabitin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuları kiçik çavuş Məlikov İftixar Nizami oğluna məxsus AD № 0033743 nömrəli, əsgər İsparlı Təbriz Saməddin oğluna məxsus AD № 0064357 nömrəli, əsgər Piriyev Aqşin Yavər oğluna məxsus AD № 0026443 nömrəli şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

**Baş redaktorun müavini**
mayor
Məhəmməd NƏSİRLİ

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
Rəşid HÜSEYNOV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi Nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti **mod.gov.az** saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 10
Nüsxə 4646